

# “Türküstan” carçısı

## Milli azadlıq hərəkatından başlanan YOL və YOL ADAMI

***1988-ci ildə Quzey Azərbaycanda vüsət alan xalq hərəkatı özündə bir neçə ideoloji cərəyanı daşıyırdı. Azərbaycanın ayrılmaz hissəsi olan o zamankı Dağlıq Qarabağ Muxtar Vilayətində baş qaldıran, İrəvandan, Moskvadan və xaricdən dəstəklənən separatçı hərəkata qarşı Azərbaycan xalqının müqavimət gücünü ortaya qoyan hərəkat az keçmədi ki, fərqli ideoloji-siyasi çalarlarını göstərməyə başladı. Bu çalarlar içərisində Azərbaycan xalqının ümummilli məfkurəsinə, düşüncəsinə o qədər də yaxın olmayan İslam fundamentalizmi, sosial-demokratlıq və s, bu kimi düşüncələr də, meydanda səsləndirilirdi. 70 il həqiqi siyasi düşüncədən uzaq düşmüş toplum üçün səsləndirilən hər bir yeni fikir, ideya maraqlı gəlirdi, parıltılı görünürdü. Bu baxımdan, toplumun yanlış istiqamətə getməməsi, milli maraq və mənafenin tələb etdiyi MİLLİ DİRÇƏLİŞ, MİLLİ KİMLİK, MİLLİ AZADLIQ ideyalarından yola çıxaraq Azərbaycanın müstəqilliyinə aparan mübarizənin ən doğru yol olaraq seçilməsi digər yad düşüncələrin arxa plana keçməsinə, tədricən ortadan qalxmasına səbəb oldu.***

Xalq hərəkatının Milli Azadlıq Hərəkatına çevrilməsi və Türkçülük əsasında davam etməsi sözsüz ki, Əbülfəz Elçibəy başda olmaqla, o zaman ayağa qalxmış toplumun qarşısına çıxan Azərbaycan aydınları-




nın tarixi xidmətinin məhsulu idi. Eyni zamanda, hərəkatın öncül təbəqəsini təşkil edən yüzlərlə Vətən fədaisinin yerlərdə əhali arasında apardı-

**Tofiq Seyid “Türküstan” qəzetini 22 May hadisələrindən az sonra təsis etdi. Bu qəzetin təsis edilməsi fikiri hər zaman vardı, amma, 22 May hadisələri bu işi daha da sürətləndirdi. Tofiq bəy bütün mümkün imkanları ilə Quzey Azərbaycandan Güney Azərbaycana verilə biləcək dəstəyin təmin olunmasına çalışırdı**

ğı iş, hərəkatın təşkilatlanma mərhələsinə keçməsi Azərbaycanın müstəqilliyinə aparan yolun təsəvvür edilməyəcək qədər yaxın olmasına gətirib çıxardı. Bu hərəkatı təşkilatlandıran, onu müstəqillik davasına yönləndirən öncüllər içərisində Tofiq Seyidov adı o dövrün şahidlərinin, proses iştirakçılarının rahatlıqla çəkəcəyi bir ad idi.

Sovet dövründə dövlətin inzibati qurumlarında çalışan məmurların hələ SSRİ-nin ayaqda olduğu bir vaxtda, hər şeyi gözə alaraq milli hərəkata qoşulması, onun öncülünə çevrilməsi o dövrdə o qədər də geniş yayılmış nümunə deyildi. Tofiq Seyidov məhz o dövrdə rahat işini, rəsmi məqamını hərəkatın sıra nəfəri, öncülü olmağa dəyişə bilən təktək insanlardan oldu.

Bu fədakarlıq nümunəsi onu həyatının bütün sonrakı dövrlərində müşayiət etdi.

Qanlı 20 Yanvar hadisələri ərəfəsində Bakıda genişmiqyaslı təxribatlar törətməyə başlamış SSRİ KQB-nin əməllərinə qarşı hərakat yoldaşları ilə birlikdə mübarizə aparanda da, 15 may 1992-ci ilə Ayaz Mütəllibovun konstitusiyaya zidd şəkildə yenidən hakimiyyəti qamarlamaq cəhdinə qarşı xalq üsyanının önünə düşüb gedəndə də, Elçibəy hakimiyyəti zamanı ən yüksək vəzifə təkliflərinə baxmayaraq heç bir rəsmi mövqeyi təşkilatdakı fəaliyyətinə dəyişməyəndə də... Bu fədakarlıq örnəklərini nə qədər desən uzatmaq mümkündür. O qədər mümkün ki, sonrakı illərdə bizlər də bu fədakarlıqlara şahidlik etdik.

Tofiq Seyid qeyd etdiyim kimi, davamlı təkliflərə rəğmən Elçibəy hakimiyyətində təmsil olunmamışdı. Amma, bunu Elçibəyin yaxın silahdaşları da, ailə üzvləri də bilirdi və bu gün də etiraf edərlər ki, ən çox inandığı, etimad göstərdiyi, etibar etdiyi şəxslərdən biri idi. Onların arasında olan bu xüsusi yaxınlıq, dostluq, indiyədək heç kimin bilmədiyi və bundan sonra da bilməyəcəyi bir çox sirləri özündə ehtiva edirdi. Tofiq bəy, Bəydən sonrakı bütün ictimai-siyasi, ideoloji fəaliyyəti ilə bu dostluğa, bu əqidə birliyinə sadiq qaldı. Yalançı siyasi oyunlardan, oyun siyasətindən uzaq durdu, yalnız Millətləşmə, Dövlətləşmə, Bütövləşmə triadasının yürüməsinə çalışdı, bu yola bütün imkanlarını səfərbər etdi.

Siyasi-ideoloji fəaliyyətində Bütöv Azərbaycan idealı əsas yer tutan Tofiq Seyid, son 15 illik fəaliyyətində Güney Azərbaycan məsələsinə daha çox yer verib. Xüsusilə, 22 May 2006-cı ildə Güney Azərbaycanda baş qaldıran hərəkat Tofiq bəyin o dövrki fəaliyyətinə ciddi təsir etmişdi. Güney Azərbaycan milli hərəkatını müdafiəsi məqsədilə keçirilən tədbirlərdə, aksiyalarda təkcə iştirakçı kimi deyil, həm də təşkilatçı kimi rol alırdı.

***Tofiq Seyid “Türküstan” qəzetini 22 May hadisələrindən az sonra təsis etdi. Bu qəzetin təsis edilməsi fikiri hər zaman vardı, amma, 22 May hadisələri bu işi daha da sürətləndirdi. Tofiq bəy bütün mümkün imkanları ilə Quzey Azərbaycandan Güney Azərbaycana verilə biləcək dəstəyin təmin olunmasına çalışırdı.***

Təsadüfi deyil ki, “Türküstan” qəzeti nəşrə olunduğu gündən indiyədəki 15 illik müddətdə Güney Azərbaycan mövzusuna, məsələsinə diqqət göstərən, Təbrizin xəbərini Gəncənin xəbəri, Ərdəbilin xəbərini Naxçıvanın xəbəri qədər bilən bir media siyasəti həyata keçirib. Qəzetin ilk sayından indiyədək bir səhifə xüsusi olaraq Güney Azərbaycan səhifəsi olub. Bu dəst-xəttin müəllifi heç şübhəsiz Tofiq Seyiddir. “Türküstan” qəzetinin qurucusu, təsisçisi, yönətim başqanı Tofiq Seyid. Və Güney Azərbaycanla bağlı eyni qayda, ənənə bu gün Turkustan.info saytında da davam etdirilir. Saytda ayrıca olaraq Güney Azərbaycan bölümü var.



Tofiq bəylə bizi daha yaxın planda “Türküstan” qəzeti birləşdirib və bu 15 ildə Tofiq bəylə olmuş, keçmişlər, ölkə, bölgə, dünya, Türk dünyası mövzularında çoxsaylı söhbətlər etmişik, müsahibələr almışıq. 15 ildə çox şey dəyişdi, ölkədə də, bölgədə də, dünyada da... Hər baş verən dəyişiklik mənə Tofiq bəyin müsahibələrini, müsahibələrdəki fikirləri, proqnozları xatırladıb. Düşünmüşəm ki, necə də vaxtilə dəqiq deyib, necə də filan məsələnin bu cür ola biləcəyini görürdü... Bu baxımdan, deyə bilərəm ki, Tofiq bəyin ötən 15 ildə qəzetimizdə dərc olunmuş müsahibələri, Güney Azərbaycan, Rusiyanın bölgə siyasəti, İranın Azərbaycan siyasəti, Türkiyənin bölgədə parlayan rolu ilə bağlı vaxtilə söylədiyi fikirlər bu günlə xeyli dərəcədə səsləşir. Və nə zamansa, araşdırma mövzusu ola bilər.



***Tofiq Seyidin iş prosesində gördüyümüz, kəşf etdiyimiz xüsusiyyətlərindən biri ətrafında olan, birlikdə çalışdığı insanlara inanması, etibar, etimad etməsidir. Bu xüsusiyyəti biz ‘Türküstan’ın simasında gördük. Heç zaman mətbu prosesə, jurnalist fəaliyyətinə, qəzetin işinə yerli və ya yersiz müdaxilə etmədi. Hər zaman inandı, etibar, etimad etdi.***

***Və fikrimzə, bu yanaşmasında da yanılmadı. ‘Türküstan” qəzeti 15 il əvvəl neçə başlamışdısa, “Adımız məfkurəmizdir” şüarı ilə Millətləşmə, Dövlətləşmə, Bütövləşmə idealına sadiq şəkildə yoluna davam edir və davam edə biləcəyi qədər də, bu dəyişməz olaraq qalacaq.***

***Xeyli müddətdir ki, Tofiq bəyin səhhətində ciddi problemlər var. Tofiq bəy ağır bir mücadilə verir. Bu yaxınlarda yeni yaşına qədəm qoyan Tofiq bəyə möcüzələr sahibi olan ulu Tanrıdan şəfa, cansağlığı diləyirik.***

**Aqil Camal**